**UOT: 781.**

**Lalə Ağayeva**
**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti**
**Magistrant**
**e-mail: Aghayevalale1838@gmail.com**

## AZƏR RZAYEVİN YARADICILIQ PORTRETİ

**Xülasə:** Bu məqalədə Azərbaycanın professional violin ifaçısı və yüksək səviyyəli əsərlər bəstələyən görkəmli bəstəkarı Azər Rzayevin həyat və yaradıcılığından bəhs olunur.

**Açar sözlər:** Azər Rzayev, violin, Azərbaycanda violin məktəbi, Elvin Xoca Qəniyev.

Azərbaycanın görkəmli bəstəkarı Azər Rzayev öz sənəti ilə – istər ifası, istər pedaqoji fəaliyyəti, istərsə də bəstəkar yaradıcılığı ilə musiqisevərlərin qəlbində dərin izlər qoymuşdur. Azərbaycan Respublikasının Xalq artisti, "Şöhrət" ordenli professor, bəstəkar, ifaçı və ictimai xadim Azər Rzayev bütün həyatını Azərbaycanın musiqi mədəniyyətinin inkişafına həsr etmişdir. O, Azərbaycan musiqisinin xarici ölkələrdə inkişaf və təbliği üçün əlindən gələni etmişdir. Öz əsərləri ilə musiqi tariximizə böyük töhfələr vermişdir. Yüksək istedada malik olan bəstəkar eyni zamanda violin alətinin peşəkar ifaçısıdır. O, violin alətinin təbiətini dərindən hiss etmək bacarığında idi və buna görə də əsərlərinin əksəriyyətini əsasən violin və digər simli alətlər üçün bəstələmişdir. Misal üçün: konsert, kamera instrumental əsərləri, poema, operetta musiqiləri.

Azər Rzayev klassik ənənələri qoruyub davam etdirdiyi kimi, eyni zamanda yeniliklər yaratmağın da tərəfdarı idi. Onun dəsti-xətti müasir və fərdidir. Onun əsərlərindəki klassik normalar milli musiqimiz ilə birləşərək çox gözəl sintez yaradır. Görkəmli bəstəkar xalq mahnılarına, milli rəqslərimizə, muğamlarımıza geniş şəkildə müraciət edərək əsərlərindəki özünəməxusluğu hiss etdirir. Təbii ki, Azər Rzayevin bu istedadı təsadüfi deyil, onun uşaqlıq illəri musiqi sənətinin əhatəsində, kübar cəmiyyətdə keçmişdir. Azər Rzayev görkəmli muğam ifaçısı, xalq artisti Həqiqət Rzayeva və tanınmış opera rejissoru Hüseyn Rzayevin oğludur. Bu ailədə böyüyüb tərbiyə almaq onun gələcəkdə istedadlı musiqiçi olması üçün əvəzedilməz rol oynayırdı.

Azər Rzayev lirik bəstəkardır və onun əsərləri həm qəmgin, həm də həyatsevər məhəbbət doludur. Faciəvi obrazlarının yaranmasında muğama, şən əhval-ruhiyyəli əsərlərində isə xalq mahnılarına, milli rəqslərimizə istinad edirdi. Muğama olan sevgisi Üzeyir Hacıbəyli sənətinə olan diqqəti, müasir musiqini mənimsəməsi bəstəkara öz sənətini tapmaqda dərindən kömək etmişdir.

Azər Rzayev 1938-ci ildə Bakı şəhərinin 1 saylı orta məktəbinə daxil olur və eyni zamanda musiqi məktəbində də təhsil almağa başlayır. 1940-cı ildə bəstəkar Konservatoriyanın nəzdindəki 10 illik musiqi məktəbinin violin sinfinə daxil olur və bu illər ərzində kiçik əsərlər bəstələməyə başlayır. 1943-cü ildə bu əsərləri dinləyən Üzeyir bəy onları çox bəyənir. Məhz bundan sonra Azər Rzayev bəstəkarlıq üzrə professor B.İ.Zeydmandan təhsil almağa başlayır. Kiçik bəstəkarın ilk pyesləri: “Hekayə” (1946-cı il), “Skerso” (1947-ci il), violin və fortepiano üçün “Fantaziya” (1947-ci il), simli kvartet üçün pyes (1947-ci il) və s.

1948-ci ildə Azər Rzayev təhsil aldığı məktəbi həm violin ifaçısı, həm də bəstəkar olaraq bitirir və hər iki təhsilini də davam etdirir. O, Konservatoriyaya bəstəkar və violin ifaçısı kimi daxil olur. Əslində sənədlərini verərkən ona bildirilir ki, iki ixtisasdan yalnız birini seçə bilər. Lakin Qara Qarayev ondan imtahan götürür və Moskva ilə danışaraq Azər Rzayevin iki fakültəyə də eyni zamanda qəbul olunması barədə icazəni yalnız bir şərtlə alır. Bu şərt isə odur ki, Konservatoriyada təhsil aldığı dövrdə bir dəfə də olsun “kafi” qiymət almamalıdır. O, burada oxuyarkən violin üzrə təhsilini professor S.L.Britanitski və A.M.Amitondan, bəstəkarlıq üzrə təhsilini isə B.İ.Zeydmandan alır. Azər Rzayev artıq bir neçə əsərini bəstələməyə başlayır: fortepiano üçün iki marş (1948-ci il); fortepiano üçün sonatina (1949-cu il); fortepiano, violin və violonçel üçün trio (1949-cu il); violin və orkestr üçün “Fədai vətən” poeması (1950-ci il); simfonik orkestr üçün uvertüra (1950-ci il); orkestr üçün ikili fuqa (1952-ci il); violin və fortepiano üçün iki pyes (1953-cü il) və s.

Görkəmli bəstəkar bu əsərlərini tələbəlik illərində yaradıcılığına əlavə etmişdir. Beləliklə, Azər Rzayev 1953-cü ildə Azərbaycan Dövlət Konservatoriyasını iki ixtisas üzrə yüksək fərqlənmə ilə bitirir. Onun diplom işi ilk irihəcmli əsəri “Violin və simfonik orkestr üçün birinci konsert” (a mall) olmuşdur. Konservatoriyanın tələbə orkestri ilə birgə konsertdə Azər Rzayev özü violində çox gözəl ifa edir və bununla gələcək yaradıcılığına böyük addımlar atır. Diplom

işini təqdim edərkən dirijorluğu onun üçün maestro Niyazi edirdi. Bəstəkar bu əsərinin yaradılmasında öz sevgisinin böyük rol oynadığını bildirir və müsahibələrinin birində qeyd edir ki: "Hər bir əsərin yaranması üçün bir səbəb və ya güclü həyat amili olmalıdır. İnamla deyə bilərəm ki, əgər həyat yoldaşım Gülər olmasaydı, bu konsert bəlkə də yazılmazdı". Görkəmli bəstəkar bu uğurundan ilhamlanaraq 1995-ci ildə simli kvartetini bəstələyir. Bu əsər maraqlı mövzuların birləşməsindən yaranmışdır. Burada həzin rəqs və gümrah, mülayim əhval-ruhiyyəli, virtuoz xüsusiyyətli obrazlar cəmlənir. Bundan sonra bəstəkar 1956-cı ildə "Violin və simfonik orkestr üçün II konsert"ini musiqisevərlərə təqdim edir. Bəstəkar bu əsərini də musiqisevərlərə öz ifasında təqdim edir.

Azər Rzayev 1954-1961-ci illərdə müxtəlif alətlər üçün pyeslər, dram tamaşalarına əsərlər bəstələyir. Məsələn: Valtorna və fortepiano üçün pyes (1954); ksilofon, marinbofon və fortepiano üçün "Yumoresko" (1959); "Bayram uvertürası" (1960); "Mil düzündə" mahnısı (1961).

Görkəmli bəstəkarın violin və fortepiano üçün 1961-ci ildə bəstələdiyi "Skerso"nu xüsusilə qeyd etmək istərdim. Azər Rzayev 1962-ci ildə keçirilən "Bəstəkarların Ümumittifaq Müsabiqəsi"ndə bu əsərə görə I dərəcəli diploma layiq görülmüşdür. 1962-1963-cü illərdə bəstələdiyi "Violin və fortepiano üçün sonata"nın III hissəsinə məhz bu skerçonu əlavə edir. Bu sonata Azərbaycan tarixində kamera janrında bəstələnmiş ilk milli instrumental-ansambl əsəridir. Bu əsərin ilk ifaçıları Azər Rzayev və Gülər Rzayeva olmuşdur. "Sovet musiqisi" jurnalında bu sonata barədə belə yazılır: "Violinin spesifik və tembr xüsusiyyətlərinə dərindən bələd olan sənətkar məhz belə sonata yaza bilərdi".

Azər Rzayevin digər incilərindən biri "Hacı Kərimin Aya səyahəti" musiqili komediyasına yazılan musiqidir. Görkəmli bəstəkar bu əsərdə milli operetta janrını qoruyaraq musiqili komediya janrına yenilik gətirmişdir. Bu musiqili komediya bir çox ölkələrdə səhnələşdirilir və məşhur gürcü bəstəkarı Şota Milarova bu tamaşa haqqında belə yazır: "Operetta yadda qalan musiqi obrazları ilə yanaşı musiqi məzmunun bitkinliyi ilə də fərqlənir. Orkestra müəllifin özünün rəhbərlik etməsi sevindirici haldır, bu onu həm də dirijor kimi təqdim edir". Musiqisevərlər də bu əsərə öz rəylərini bildirmişdilər. "Sovet musiqisi" jurnalında belə bir rəy var: "Azər Rzayevin operettası Azərbaycanın Musiqili Komediyasının yaradıcılıq təcrübəsinə, sözsüz ki, yeni elementlər gətirmişdir".

1964-cü ildə isə Azər Rzayev özünün ən sevdiyi əsəri olan "Fortepiano və simfonik orkestr üçün konsert" (C dur) bəstəkarın dinləyicilərinin marağına səbəb olmuşdur. Bu konserti bəstəkar öz övladı Ülviyyəyə həsr etmişdir. Ülviyyə Bülbül adına orta musiqi məktəbinin fortepiano sinfində təhsil alırdı. Elə bu konsertin ilk ifaçısı da 9 yaşlı Ülviyyə olmuşdur. Ülviyyə Rzayeva bu əsəri ilk dəfə ifa etməsini belə xatırlayır: "Konsertin aparıcısı mənim adımı elan edərkən atam arxadan məni səhnəyə tərəf itələyərək yavaşca dedi: "Get və heç nədən qorxma". Mən bu sözlərdən ürəklənərək səhnəyə çıxdım və deyilənə görə çox müvəfəqiyyətli bir ifa sərgilədim".

1960-cı illərdən Azər Rzayev simfonik poema janrına maraq göstərir. Onun bir-birindən gözəl, incə ruhlu, zəngin musiqi dili olan poemaları vardır. O, 7 poemanın müəllifidir. Hər bir poemasında özünə xas olan ifadə vasitələri vardır. Poemalarından "Atamın xatirəsinə" poeması məzmun cəhətdən bəstəkarın başqa əsərləri ilə müqayisədə daha kədərli əsərdir. Bu poema bəstəkarın atası, opera rejissoru Hüseyn Rzayevin xatirəsinə həsr olunub. Poemanın musiqisində dərin emosionallıq vardır. Əsərin girişində "Lyamento" tipli instonasiya ilə kədəri hiss etdirən faqot alətinin monoloqu səslənir və bu bir obraz yaradır, yaxın insanın itkisini – vəfatını hiss etdirir. Bəstəkarın bu poeması ilk dəfə 1966-cı ilin dekabr ayında Azərbaycan Dövlət Kamera Orkestrinin ifasında Moskvada səsləndirilmişdir.

Azər Rzayev daha sonra "Həyat vurğunu" əsərini (1968-ci il); orqan, altı litavr və kamera orkestri üçün poemalarını (1930-cu ildə); İmaməddin Nəsiminin 600 illiyininə həsr olunmuş "Nəsimi" poemasını bəstələyir (1973-cü il). Bu poema bəstəkarın əsərləri içərisində ən yüksək zirvədə olandır. Bəstəkar bu poemasını Nəsiminin lirik qəzəlləri əsasında yazılan "lirik dramatik lövhə" adlandırır. "Nəsimi" poeması simfonik orkestr, solo ud və bədii qiraətçi üçün yazılıb. Əsərin ideyasını isə bu iki sətir çox aydın şəkildə əhatə edir:

*"Məndə sığar iki cahan, mən bu cahana sığmazam!*
*Gövhəri laməkan mənəm, kövnü məkana sığmazam!"*

Bu poemada simfonik orkestrin partiturasına muğam improvizasiyası sərbəst şəkildə əlavə olunur. Bu da Azərbaycan musiqisində ilk addımlar idi.

Bəstəkarın digər poemaları viola və kamera orkestri üçün (1978-ci il), violonçel və simfonik orkestr üçün (1985-ci il) olan poemalarının da adlarını çəkmək lazımdır. Azər Rzayev alətlərin texniki imkanlarını çox yüksək səviyyədə bilirdi və buna görə əsərlərində alətlərin zəngin tembr boyalarından yüksək səviyyədə istifadə bacarığına malik idi.

Görkəmli bəstəkar 1960-1980-ci illərdə dram tamaşalarına əsərlər bəstələyir. Məsələn: N.Gəncəvinin "Yanmış planetin sərvətləri" (1963-cü il); R.Heydərin "Zəng səsləri" (1967-ci il); İ.Əfəndiyevin "Mənim günahım" (1967-ci il); M.İbrahimovun "Kəndçi qız" (1964-cü il); Q.Rəsulovun "Söz yarası" (1967-ci il); B.Vahabzadənin "İkinci səs" (1969-cu il); S.Vurğunun "Fərhad və Şirin" (1979-cu il) və s. bu kimi dram tamaşalarının adlarını çəkə bilərik.

Azər Rzayev mahnı janrına da müraciət etmişdir. Həqiqətdə o, mahnı bəstəkarı deyildi, lakin bir çox mahnıların müəllifi idi. Bəstəkarın lirik, şən və məhəbbət mövzusunda yaddaqalan mahnıları vardır. Sözləri N.Gəncəviyə aid olan "Lirik mahnı"; M.Füzulinin "Heyran etdin"; D.Nəsibin "Qızlar yaman göyçəkdir"; İ.Səfərlinin "Mingəçevir dənizində"; G.Kazımın "Əgər səni sevən varsa"; T.Əyyubovun "Ana"; Ə.Kürçaylının "Mil düzündə" və s. mahnı və romanslarının adlarını çəkmək olar. Eyni zamanda bəstəkar instrumental pyeslər və fortepiano üçün "Düşüncə", nəvəsi Leylaya həsr etdiyi "Leyla", "Nəvələr", "Ey gözəl", "Söylə Tanrı" və s. mahnıların müəllifidir.

Azər Rzayev 1990-cı ilin may ayında Azərbaycan Bəstəkarlar İttifaqının plenumunda violin, viola və simfonik orkestr üçün ikili konsertini təqdim edir. Bu əsər Azərbaycan musiqi tarixində bu alətlər üçün yazılan ilk konsertdir.

Azərbaycan musiqi ədəbiyyatında ən kamil əsərlərdən biri də Azər Rzayevin müəllifi olduğu "Bakı 90" simfoniyasıdır. Bu əsər 20 Yanvar hadisələrinə, şəhidlərimizə həsr olunmuşdur. Görkəmli bəstəkar simfoniya haqqında belə deyir: "Mən partiturada hadisələrin faciəvi dramaturgiyasını göstərməyə çalışıram. Simfoniyanın finalında isə xalqın əyilməz iradəsini, qara qüvvələrə qalib gələrək qələbəyə olan sarsılmaz inamını, azad, müstəqil olacağını musiqidə əks etdirmişəm. Simfoniya ilk dəfə 1990-cı il noyabr ayının 4-də "Müslüm Maqomayev" adına Azərbaycan Dövlət Filarmoniyasında Xalq artisti, dirijor R.Abdullayevin rəhbərliyi ilə Üzeyir Hacıbəyli adına simfonik orkestrin ifasında tamaşaçılara təqdim olunub.

Azər Rzayev 90-cı illərdə yazdığı əsərlərdən violin və fortepiano üçün "Sonatina" (1990-cı il), "Altı simfonik lövhə" (1992-ci il), violonçel və kamera orkestri üçün "Kantilena" (1995-ci il) (e moll) və s. kimi əsərlərin adlarını qeyd edə bilərik. Bəstəkar sonatinanı "Keçmişi yada salarkən" adlandıraraq violin ifaçısı Tacəddin Manafzadəyə həsr etmişdir. "Altı simfonik lövhə" ilk dəfə 1992-ci ildə Azərbaycan Bəstəkarlarının plenumunda dirijor Yalçın Adıgözəlovun rəhbərliyi ilə Üzeyir Hacıbəyov adına simfonik orkestrin ifasında tamaşaçılara təqdim olunmuşdur. Görkəmli bəstəkarın violonçel üçün yazdığı "Kontilena" əsəri böyük əhəmiyyətə malik olan əsərlərdəndir. Bu əsərin Azər Rzayevin həyatında çox böyük yeri vardır. O, bu əsərini Azərbaycan violonçel məktəbinin banisi olan, respublikamızda ilk kvartetin təməlini qoyan, eyni zamanda istedadlı müəllim olan Sabir Əliyevin əziz xatirəsinə həsr etmişdir. "Kontilena" əsərində Sabir Əliyevi xatırladan bir çox keyfiyyətlər vardır, ona xas olan güclü iradə, həssaslıq, emosionallıq və s. xüsusiyyətlər yüksək səviyyədə ifadə olunur.

1990-1998-ci illərdə Azər Rzayev muğamların, xalq mahnılarının və bir çox bəstəkarların əsərlərinin xalq və Avropa alətləri üçün işlənmələrinə diqqət göstərmişdir. Onun işlədiyi bir çox əsərlər tarzən, xalq artisti Ramiz Quliyev tərəfindən müxtəlif xarici ölkələrdə ifa olunub. Buna misal olaraq iki tar və kamera orkestri üçün "Düşüncə" və "Qaytağı"; insan səsi, tar, kamança və kamera orkestri üçün "Ovşarı"; tar və kaman orkestri üçün "Heyratı"; zərbli muğamı, fleyta və kamera orkestri üçün "Mirzeyi" və "Vağzalı" rəqsləri; kişi və qadın səsi, tar, kamança və kamera orkestri üçün "Qarabağ Şikəstəsi"; qaboy və kamera orkestri üçün "Aman ovçu"; orkestr üçün "Bazarda alma" və "Səndən mənə yar olmaz" kimi xalq mahnılarının işləmələrini də qeyd etmək olar. Bu kimi addımlar Azər Rzayevin milli musiqi mədəniyyətimizə, xalq mahnılarımıza olan məhəbbətindən irəli gəlir.

Azər Rzayev 2000-ci ildə Babayevlər ailəsinə həsr etdiyi "Üç violin və simfonik orkestr üçün konsert"ini bəstələyir. Bəstəkar üçlü konsert yaradaraq yaradıcılığında böyük bir məsuliyyətin öhdəsindən müvəffəqiyyətlə gəlmişdir. Bu əsər yeganə nümunədir.

Görkəmli bəstəkar Azər Rzayev, qeyd etdiyim kimi, peşəkar violin ifaçısı, yüksək səviyyəli müəllim idi. O, həm də konsert fəaliyyəti ilə məşğul olurdu. Violin aləti onun həyatında böyük rol oynayırdı. Azər müəllim 1953-cü ildən Bülbül adına orta ixtisas musiqi məktəbində violin müəllimi kimi fəaliyyət

göstərməyə başlayır. Eyni illərdə Azərbaycan Dövlət Konservatoriyasında konsertmeyster və 1957-ci ildən 1977-ci ilə kimi kamera ansamblı üzrə müəllim vəzifəsində çalışmışdır. 1991-1999-cu illərdə kamera ansamblı kafedrasının müdiri, 1999-cu ildən 2013-cü ilə qədər "Simli alətlər" kafedrasının müdiri vəzifəsində fəaliyyət göstərmişdir.

Azər Rzayev öz bəstələdiyi əsərlərlə yanaşı klassik, qərb, rus və müasir bəstəkarların da əsərlərinin yüksək səviyyəli ifaçısı kimi tanınmışdır. O, bir əsəri ifa edərkən əsərin müəllifinin bütün fikir və hisslərini öz ifasında göstərməyi və tamaşaçılara xüsusi zövq verməyi çox gözəl şəkildə bacarırdı. Bu da Azər müəllimin nə qədər istedadlı bir ifaçı olduğunun əsas göstəricisi idi. Bu xüsusi istedadı ilə o, əsəri dinləyicilərə daha dolğun bir şəkildə çatdırmağa qadir idi. Azər Rzayev hər əsərin məzmununu, daxili aləmini öz dinləyicilərinin fikrində canlandırmaq istəyirdi.

Görkəmli sənətkar Azər Rzayev başqa sahələrdə olduğu kimi, kamera ansamblı sahəsində də böyük nailiyyətlər əldə etmişdir. O, həmişə silsilə sonata gecələrinin ifaçısı idi. Bu konsertlərdə Azər müəllim həyat yoldaşı Gülər xanım və qızı Ülviyyə Rzayeva ilə birgə iştirak edirdi. Gülər xanım Bakı Musiqi Akademiyasının dosenti vəzifəsində fəaliyyət göstərirdi. O, ömrü boyu həyat yoldaşı Azər müəllimlə birlikdə, çiyin-çiyinə çalışmışdır. Gülər xanım Azər Rzayevin violin və fortepiano üçün yazdığı əsərlərin ilk ifaçısı olmuşdur. Azər müəllimin yaradıcılıq uğurlarında həyat yoldaşı Gülər xanımın rolu çox böyükdür. O, Azər müəllimə sənəti ilə məşğul olmaq üçün həmişə evdə rahat şərait yaradardı. Gülər xanım Azər Rzayevin əsərlərinin ilk dinləyicisi, eyni zamanda da kəskin tənqidçisi idi, amma bu tənqid sağlam tənqid sayılırdı. Azərbaycanın musiqi mədəniyyətində iki böyük nəslin nümayəndəsi olan bu cütlüyün rolu böyükdür. Onlar birlikdə SSRİ-nin bir çox şəhərlərində konsert proqramları təşkil etmişdilər. Bu konsertlərdə xarici və sovet bəstəkarlarının Bakıda ilk dəfə səslənən əsələrini böyük zövqlə və peşəkarlıqla ifa edirdilər.

Azər Rzayevin ansambl ifaçısı kimi özünəməxsus xüsusiyyətləri var idi. Onlardan biri də ifasını tərəf müqabilinin ifası ilə çox asanlıqla uyğunlaşdırmaq qabiliyyətinə malik olması idi. Azər müəllim daima öz biliklərini tələbələrinə çatdırmağa çalışmışdır. Onun sinfində təhsil alan tələbələr Azər müəllim kimi istedadlı, bacarıqlı və məsuliyyətli olmalı idilər. Əks halda Azər müəllimin tələbkarlığı onların bu sinifdə təhsil almaq haqlarını əllərindən alırdı. Azər müəllim

tələbəsi olan gənclərdə kamera ansamblı fənninə məhəbbət yaratmışdır. Azərbaycan mədəniyyətində böyük rolu olan Fərhad Bədəlbəyli, Firəngiz Əlizadə, Fidan Qasımzadə, Murad Adıgözəlov, Murad Hüseynov, Əzizə Mustafazadə və digər istedadlı tələbələri ilə həmişə fəxr etmişdir. Onlar "Azərbaycanın Xalq artisti" adına layiq görülmüş dahilərdir. Fərhad Bədəlbəyli hər bir müsahibəsində qürur hissi ilə bildirir ki: "Azər Rzayev mənim kamera ansamblı üzrə ilk müəllimim olub. Mən əminəm ki, mənim kamera musiqisinə olan məhəbbətim və ansambl ifaçılığından həzz almağım məhz Azər müəllimin sinfində yaranmışdır".

Azər Rzayevin yaradıcılığı bir çox sahələrdə çalışmışdır, lakin onun həyatı boyu gördüyü bütün işlər pedaqoji fəaliyyətini əvəz etməmişdir. Bu gün də onun tələbələri böyük səhnələrdə, xarici ölkələrdə uğurlu çıxışlar edirlər. Azər Rzayev yaradıcılığı boyu bacardığı hər işdə uğurlu nəticə əldə etməyə çalışmışdır. 1970-ci ildə onun rəhbərliyi ilə fortepiano və violonçeldən ibarət üçlük yaranır. 1991-ci ildə isə yeni bir üçlük – "Azəri" triosu yaradılır. 1991-1992-ci illərdə Azər Rzayev "İlham" orkestrinə rəhbərlik etməyə başlayır. Görkəmli bəstəkar işləmələrini, demək olar ki, bu orkestr üçün işləyirdi.

1993-cü ildə Fərhad Bədəlbəylinin rəhbərliyi ilə "Rast" kamera orkestri fəaliyyətə başlayır və bu orkestrin musiqi rəhbəri Azər Rzayev olmuşdur. 1997-ci ildə Bülbül adına orta ixtisas musiqi məktəbində çox az rast gəlinən uşaq simfonik orkestri yaradılır və Azər Rzayev bu orkestrə həm rəhbərlik edir, həm də dirijor kimi fəaliyyətə başlayır. Böyük sənətkar bu çox çətin və məsuliyyətli işin öhdəsindən professionallıqla gəlir. Uşaqlardan ibarət bu simfonik orkestr yüksək səviyyəli musiqi heyəti ilə təşkil olunur. İstedadlı pedaqoq uşaqların yaş xüsusiyyətlərini və ifa bacarıqlarını nəzərə alaraq bir çox əsərləri yenidən işləməyə başlayır. Məhz bu orkestr üçün bəstələdiyi "Gənc musiqiçilərin marşı" dillərdə dastan olur və bu orkestrin himninə çevrilir. "Bakılı" Beynəlxalq Mədəniyyət Cəmiyyəti tərəfindən "Musiqi" nominasiyasında Azər Rzayev Uşaq Simfonik Orkestrinin yaradıcısı kimi "Humay ilahəsi-2001" milli mükafatına layiq görülür.

Azər Rzayev 1957-1960-cı illərdə Radio və Televiziya Komitəsində səs rejissoru, 1965-ci ildə Müslüm Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasında bədii rəhbər, 1966-1972-ci illərdə Bəstəkarlar İttifaqının sədri, 1972-1987-ci illərdə ərzində isə Mirzə Fətəli Axundov adına Akademik Dövlət Opera və Balet Teatrında direktor vəzifəsində fəaliyyət göstərmişdir. Görkəmli

sənətkarın Azərbaycan musiqi mədəniyyətində verdiyi əməklər daim Azərbaycan hökuməti tərəfindən layiqincə mükafatlandırılmışdır. O, çoxlu fərmanlar və medallarla təltif olunmuşdur. Azər müəllimin hər bir əsəri Azərbaycan musiqisinə daxil olan çox qiymətli incilərdir. Onun özünəməxsus, milli ruhlu, xalq musiqisinə bağlı, ahəngdar əsərləri hər zaman musiqisevərlər tərəfindən sevilərək dinlənilir və alqışlanırdı. Görkəmli musiqiçi Azər Rzayev 1972-ci ildə Əməkdar incəsənət xadimi, 1990-cı ildə Xalq artisti, 2000-ci ildə isə nəhayət "Şöhrət" ordeni kimi yüksək titullara layiq görülmüşdür.

2010-cu ildə isə böyük sənətkar 80 yaşı tamam olması münasibəti ilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən ölkəmizin gəncləri və musiqi mədəniyyətinin inkişafı üçün göstərdiyi xidmətlərə görə "Fəxri Diplom"la mükafatlandırılmışdır.

**Ədəbiyyat siyahısı:**

1. İsazadə Ə. İ. Azərbaycan sovet bəstəkarlarının instrumental yaradıcılığı (kamanla çalınan simli musiqi alətləri üçün) Bakı, Azərb. EA Nəşriyyatı , 1961
2. Qasımova S. C Azərbaycan musiqi ədəbiyyatı Dərslik. 1ci hissə. B. Adiloğlu, 2009
3. Qasımova S. C Seçilmiş məqalələr. Bakı: "Elm və təhsil", 2010
4. Zöhrabov R. F. Bəstəkarlarımız haqqında söz. B. :Şur, 1995
5. Zöhrabov R. F. Bəstəkarlarımızın portreti. B. :Gənclik, 1997
6. Leyla Quliyeva : "Azər Rzayevin həyat və yaradıcılığı"
7. Севил Мустафаева: "Азер Рзаев "Баку ширваннешр, 1999

**Лала Агаева**

## ТВОРЧЕСКИЙ ПОРТРЕТ АЗЕРА РЗАЕВА

**Резюме:** В этой статье говорится о жизни и творчестве профессионального исполнителя скрипки и выдающегося композитора Азербайджана, Азера Рзаева сочинившего произведения высокого уровня.

**Ключевые слова**: Азер Рзаев, скрипка, школа скрипки в Азербайджане, Эльвин Ходжа Ганиев.

**Lala Agayeva**

**AZER RZAYEV'S CREATIVE PORTRAIT**

**Summary:** This article discusses the life and work of Azer Rzayev, a professional violinist and outstanding composer of high – level works of Azerbaijan.

**Key words**: Azer Rzayev, violin, violin school in Azerbaijan, Elvin Khoja Ganiyev.

**Məqalənin redaksiyaya daxil olma tarixi: 11. 01. 2022**

**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:**

**Sənətşünaslıq üzrə fəlsəfə doktoru, professor Kamilə Dadaş-zadə**